QANUN № 08 (382), 2026, s.66-73

Dəmirli Kamil İlqar oğlu
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi və doktorantı
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: damirlikamil@gmail.com

UOT 341.231.14
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.166

SÜLH HÜQUQUNUN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ ƏSAS ELMİ-NƏZƏRİ ÇƏTİNLİKLƏR

Açar sözlər: *insan hüquqları, beynəlxalq öhdəliklər, beynəlxalq məsuliyyət, implementasiya, qlobal hüquq, qlobal sülh, hüququn funksiyaları, sülh hüququ sahəsi, pozitiv sülh, beynəlxalq nəzarət, şikayət mexanizmi, kollektiv sülh..*

Ключевые слова: *права человека, международные обязательства, международная ответственность, реализация, глобальное право, глобальный мир, функции права, область мирного права, позитивный мир, международный контроль, механизм подачи жалоб, коллективный мир.*

Key words: *human rights, international obligations, international responsibility, implementation, global law, global peace, functions of law, area of peace law, positive peace, international control, complaint mechanism, collective peace.*

Sülh hüququ yalnız beynəlxalq ümumi hüquq sisteminin mənəvi və etik idealı kimi deyil, həm də yeni qlobal silahlı münaqişələr və digər zorakılıqlar qarşısında fundamental insan hüquqlarına hörmət etmək, qorumaq və yerinə yetirmək üçün praktik bir vasitə və hüquq prinsipi kimi ortaya çıxır. Buna görə də beynəlxalq sosial münasibətlərin transformasiyalarının hərtərəfli təhlili prosesində sülh hüququnun həyata keçirilməsi və təmin edilməsinə maneçilik yaradan aşağıdakı əsas çətinliklər müəyyən edilə bilər:

1) Yeni tip silahlı münaqişələr - kiberhücumların, informasiya əməliyyatlarının və iqtisadi təzyiqin istifadə edildiyi hibrid müharibələr sabitliyin və təhlükəsizliyin qorunmasını əhəmiyyətli dərəcədə çətinləşdirir, fərdi və kollektiv sülh hüququnun həyata keçirilməsi və təmin edilməsi üçün çoxölçülü təhdidlər yaradır. Yeni növ silahlı münaqişələr odlu silahların istifadə edilmədiyi formada baş verir, beynəlxalq hüququn ənənəvi mexanizmlərini məhv edir, mövcud kollektiv təhlükəsizlik sistemlərinin effektivliyini şübhə altına alır və bu cür çətinliklərə cavab vermək üçün yeni hüquqi və siyasi mexanizmlərin hazırlanmasını şərtləndirir;

2) sülh hüququnun həyata keçirilməsi üçün effektiv implementasiya mexanizminin olmaması - digər hüquq və azadlıqlardan fərqli olaraq, sülh hüququ beynəlxalq qurumlar çərçivəsində dəqiq və hərtərəfli şəkildə təsbit edilmiş qorunma, tətbiq və ya şikayət mexanizminə malik deyil. Beləliklə, o, tez-tez deklarativ xarakterdə bəyan edilən, heç bir əsaslı nəzəri-hüquqi bünövrəsi ol-

mayan insan hüququ kimi qəbul edilir ki, bu da onun beynəlxalq hüquq sahəsində effektivliyini azaldır;

3) sülh hüququnun siyasiləşdirilməsi - geosiyasi böhran şəraitində sülh təbliğat, KİV reklamı, şou yaratmaq və media alətinə çevrilir, lakin hüquqi cəhətdən məcburi insan hüququ öhdəliklərindən məhrum edilir. Beləliklə, müxtəlif dövlətlər və siyasi bloklar sülh hüququnu öz maraqları naminə şərh edirlər ki, belə bir siyasi şaxələnmə şəraitində yanaşmaların ümumiliyi və vahidliyi azalır. İnsan hüquqlarının qorunması sferasında sülh hüququ özünün implementasiya və tətbiqinin zəifliyi ilə xarakterizə olunur, bir sıra dövlət rəhbərləri süni "sülh siyasəti" təbliğatçısı kimi çıxış edir, əslində isə sülh hüququ üzrə ümumdünya hüquq standartları unudulur. Nəticə etibarilə sülh hüququ mütləq hüquqlar kateqoriyasından çıxır və insan hüquqlarının nisbiliyi konsepsiyasına tabe olur.

Məlum olduğu kimi, üçüncü nəsil insan hüquqları arasında sülh hüququ, təhlükəsizlik hüququ, sağlam ətraf mühit və davamlı inkişaf hüququ və s. ayırmaq olar. Bu hüquqlar əsasən kollektiv xarakter daşıyır və sosial qruplara, millətlərə və xalqlara aiddir. Lakin onların siyasi, bəzən isə hərbi-siyasi komponenti əhəmiyyətli mübahisələrə səbəb olur və milli və ya qlobal səviyyələrdə qorunma və tənzimetmə prosesində suallar yaradır. Buna görə də müasir elm və təcrübə üçün qeyri-sabit sosial münasibətlər, transformasiyalar, beynəlxalq hüquqi nizamın perspektivli yenidən qurulması və konstitusiya hüquqi nizamının sabitliyinin təmin edilməsi şəraitində sülhün və təhlükəsizliyin insan hüquqları dəyəri kimi potensialına diqqət yetirmək vacibdir.

Son illərdə fərdi və kollektiv insan hüquqlarının, bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan sülh hüququ və təhlükəsizlik hüququnun, onların təminat mexanizmlərinin, tətbiqinin və qorunmasının öyrənilməsinə elmi marağın artdığını müşahidə edirik. Sülh hüququ üzrə tədqiqatların bir qismində beynəlxalq imperativ tələblərin təhlilinə yer verilir, digər tədqiqatlar isə daha çox sülh hüququnun milli-konstitusion əsaslarına həsr olunur. Sülh hüququnun beynəlxalq və milli-konstitusion hüquqi nizamasalma problemləri ilə bağlı İ.Siatitsanın maraq doğuran "İnsan hüquqlarının ciddi şəkildə pozulması: yeni xüsusi rejimin yaranması haqqında" tədqiqatını vurğulamaq yerinə düşərdi. Bizim də dəstəklədiyimiz elmi yanaşmaya müvafiq olaraq, müəllif bu tədqiqat əsərində ümumiləşdirilmiş formada sülh hüququnun əhatə dairəsinin, onun subyektlərinin pərakəndəliyinin və sülh hüququ üzrə təfsirin qeyri-müəyyənliyini vurğulayır və insan hüquqlarını "erga omnes" öhdəlikləri və ya mənəvi məhdudiyyətlər baxımından nəzərdən keçirir [5, s.37].

Sülh hüququndan irəli gələn və onun əsas elementlərini özündə birləşdirən təhlükəsizlik hüququ da müasir qlobal dəyişikliklərdən irəli gələrək, tədricən daha çox iqtisadi-sənaye əlamətləri əldə edir – təhlükəsizlik hüququ ictimai əhəmiyyətli insan hüququ olsa da, bugün enerji təhlükəsizliyi, informasiya təhlükəsizliyi və ya beynəlxalq iqtisadi təhlükəsizlik kontekstində istifadə edilir. Digər sözlə, sülh hüququnun əsas tələblərini özündə birləşdirən təhlükəsizlik hüququ özünün əsas və özək mahiyyətini itirir, iqtisadi maraqlara tabe edilir. Hesab edirik ki, eyni fikirləri biz sülh hüququ barədə də istifadə edə bilərik.

Qlobal miqyasda sülh və təhlükəsizlik üzrə dərin fövqəladə böhranlar, hərbi toqquşmalar və geosiyasi dəyişikliklər vəziyyətində qabaqcıl sülh hüququ mexanizmlərinin təmin edilməsi

məsələsi xüsusi əhəmiyyət kəsb edir. Sülh hüququnun icrası və təminatı bir sıra çətinliklərin özünü qabarıq şəkildə büruzə verməsi isə əlamətdar hesab edilir: yeni növ təchizat ilə xarakterizə olunan toqquşmalar (kiberhücumlar, məlumat əməliyyatları və qlobal maliyyə maxinasiyaları, və s.) sabitliyin və təhlükəsizliyin qorunmasını əhəmiyyətli dərəcədə çətinləşdirir, sülh hüququnun reallaşdırılmasına çoxölçülü təhlükələr yaradır; sülh hüququnun reallaşdırılması üçün uğurlu bir vasitənin ortaya çıxmaması onun implementasiya qabiliyyətini heçə endirir; sülh hüququnun siyasiləşdirilməsi - geosiyasi fövqəladə vəziyyət şəraitində sülh insan hüququ deyil, təbliğat vasitəsinə çevrilir; psixoloji müharibənin, radikalizmin və daxili qeyri-sabitliyin yayılması sülh hüququ ilə birlikdə digər insan hüquqları və azadlıqlarının mövcudiyyətinə cidd zərbə vurur; münaqişə şəraitində kütləvi insan hüquqlarının pozulması (soyqırım, ekstradisiya, işgəncə) müharibə və post-müharibə dövründə sülh hüququnun əhəmiyyətinin yoxa çıxmasına səbəb olur; milli səviyyədə sülh hüququna kifayət qədər qanunvericilik normaları həsr edilmir və heç də hər bir milli hüquq sistemində sülh hüququ tanınmır; məqsədyönlü təbliğat vasitəsilə toqquşmaların və sülhün tanınmasını təhrif edən informasiya müharibələri və dezinformasiya, dünyanın qlobal hüququna, insan hüquqlarına inama və müstəsna sülh anlayışına etimadı sarsıdır.

İnsan hüquqları çərçivəsində sülh hüququna doğru irəliləyiş perspektivləri müəyyən edilmişdir ki, bunlara tənzimləmə və qanuni təkmilləşdirmə (dünya miqyasında tənzimləmələrdə birləşmə və vahidləşmə, əhəmiyyətli hüquqi standartların milli qanuni çərçivələrə inteqrasiyası, eləcə də bu hüququn milli və universal səviyyələrdə icrası və təminatı üçün uğurlu alətlərin təşkili daxildir); təşkilatlanma və tənzimləmələr (sülh hüququ ilə əlaqədar pozuntuları daha effektiv şəkildə araşdırmaq və reaksiya vermək, sülh təbliğatçıları arasında koordinasiyanı gücləndirmək üçün universal təşkilatların səlahiyyətlərinin nəzarət xüsusiyyətlərini təmin etmək); konseptual dəyişikliklər (sülh hüququna doğru yeganə kollektiv yanaşmadan sülhün hər bir fərdin qanuni olaraq təmin edilmiş fərdi hüququ ola biləcəyi anlayışına keçid verir); etibarlı və davamlı inkişaf perspektivləri (təkcə qarşıdurmaları bitirmək üçün deyil, həm də təhlükəsizliyin kök səbəblərini aradan qaldırmaqla onların baş verməsini qabaqlayan strategiya və sülhməramlı əməliyyatları həcmini artırmaq).

Qeyd etmək lazımdır ki, sülh hüququ bu gün təhlükəsizlik hüququ adlanan çox vacib bir elementi özündə birləşdirir. Tarixi baxımdan, təhlükəsizlik haqqında müxtəlif dövrlərdə müxtəlif fikirlər səslənsə də, müasir dünyada bunlar əsasən sekulyarizasiya və antropoloji təsirlə diktə olunur ki, bu da təhlükəsiz həyat üçün şərait yaratmaq məsuliyyətini insanların üzərinə qoyur. Təhlükəsizlik fundamental dəyər və bəşəriyyətin yaşaması, davamlılığı və uzunömürlülüyü təmin etmək üçün əsas amil hesab olunur. Bu, təhdidlərdən qorunma, qorxudan azad olmaq kimi gəlsəfi elementləri özündə birləşdirən və təsirli təhlükəsizlik zəmanətləri, zərər halında kompensasiya mexanizmləri tələb edən çoxşaxəli bir anlayışdır.

Sülh hüququnun beynəlxalq tənzimlənməsi olduqca zəif və sistemsiz olsa da, dinc birgəyaşayış üçün yalnız əsaslı deyil, həm də prosedur zəmanətlərinin də mövcudluğunu əhatə edir. Prosedur mənasında sülh hüququ əlaqədar şəxslərin pozulmuş hüquqlarının bərpası və günahkarların ədalət mühakiməsinə cəlb edilməsi, ərazi bütövlüyünün bərpası, zərərin

ədalətli ödənilməsi, fərdlərin və təcavüzkar dövlətin müharibə cinayətləri və insanlığa qarşı cinayətlərə görə məsuliyyət daşıması, eləcə də gələcəkdə təcavüzün təkrarlanmasının qarşısını almaq üçün təhlükəsizliyi təmin etmək mexanizmlərinin yaradılması kimi öhdəlikləri əhatə edə bilər.

Bu gün sülh hüququ və onun əsas elementi olan təhlükəsizlik hüququ artıq yalnız insan hüquqları kateqoriyalarına aid deyil, həm də cəmiyyətin və dünya birliyinin sabitliyini və tərəqqisini müəyyən edən və təsir edən ümumi sivilizasiya dəyərlərinə çevrilmişdir. Bu hüquqlar beynəlxalq və milli-konstitusion hüquq sisteminə, Avropa İttifaqının hüquq sisteminə və digər müvafiq ümumi hüquq prinsiplərinə inteqrasiya olunmuşdur. Onların əhəmiyyəti müasir qlobal çağırışlar və hərbi-siyasi, sosial-iqtisadi və dini-ideoloji münaqişələr, o cümlədən rəqəmsal mühitdə artmaqdadır, habelə onların effektiv qorunması və həyata keçirilməsinə ehtiyac getdikcə daha çox vurğulanır.

Əlavə olaraq, sülh hüququnu beynəlxalq universal və regional hüquqi quruluşun əsası təşkil edən fundamental dəyər kimi qiymətləndirmək mümkündür. O, digər əsas hüquqlarının: yaşamaq hüququ, azadlıq hüququ, layiqli həyat hüququ və təhlükəsiz mühitin reallaşması hüququ üçün ilkin şərt kimi istifadə edilə bilər. Sülh hüququ konstitusion yaşamaq və azadlıq hüququnun tərkib hissəsi olan ədalətli sülh anlayışı ilə sıx şəkildə bağlıdır. Bu əlaqəlilik təhlükəsizlik hüququnun da həm fiziki, həm də psixoloji təhlükəsizlik mənasında əhəmiyyətini artırır, eləcə də zorakılıq, terrorizm və ayrı-seçkilikdən qorunmanı əhatə edir. Ədalətli sülh ideyası sülhün hər şeyi əhatə edən bir şərt olduğunu, lakin ədalət vədi daşımalı olduğunu ehtiva edir. Tarixi baxımdan, ədalət və sülhü əlaqələndirmək ideyasının qədim kökləri sülh quruculuğu və keçid ədalətinə yanaşmalar çərçivəsində inkişaf etdirilmişdir [6, s.55].

Qeyd olunmalıdır ki, insan hüquqlarının nəzəri təsnifatında sülh hüququ, bir qayda olaraq, üçüncü nəsil hüquqlar, başqa sözlə, həmrəylik (kollektiv) hüquqları çərçivəsində nəzərdən keçirilir. Bu təsnifata əsasən, mülki və siyasi hüquqlar birinci, iqtisadi, sosial və mədəni hüquqlar ikinci nəsil hüquqları təşkil etdiyi halda, sülh və inkişaf hüququ kimi kollektiv xarakter daşıyan hüquqlar üçüncü nəsil hüquqlar sırasında qiymətləndirilir [3, s.6]. Sülh hüququnun bu kateqoriyaya aid edilməsinin başlıca səbəblərindən biri onun mahiyyət etibarilə universal xarakter daşıması və tam təmin olunması ayrı-ayrı dövlətlərin fəaliyyəti ilə məhdudlaşmamasıdır. Belə ki, sülhün davamlı və effektiv şəkildə təmin edilməsi beynəlxalq birliyin, dövlətlərin və bütövlükdə bəşəriyyətin qarşılıqlı əməkdaşlığını və həmrəyliyini tələb edir. Bu baxımdan, sülhün yalnız bir dövlət daxilində təmin olunması onun beynəlxalq miqyasda tam təmin olunması üçün kifayət etmir. Məhz kollektiv fəaliyyət və beynəlxalq həmrəylik zərurəti sülh hüququnun kollektiv hüquqlar kateqoriyasında nəzərdən keçirilməsinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir [1, s.23].

Bu gün ədalətli sülh beynəlxalq ədalət, ümumi insan hüquqlarının qorunması və beynəlxalq əməkdaşlığın elementlərini özündə birləşdirən kollektiv sülh hüququ ilə hərtərəfli şəkildə əlaqələndirilir. Bu, xalqlar arasında etimadı bərpa etməyə, münaqişə qurbanlarının reabilitasiyasına və beynəlxalq səviyyədə qanunun aliliyinin bərqərar edilməsinə yönəlmişdir. Bundan əlavə, ədalətli sülhü təmin etmək üçün həm milli, həm də beynəlxalq səviyyələrdə sülh hüququnun daha yaxşı təmin edilməsinə gətirib

çıxara biləcək, münaqişədən sonrakı həllə, sabit inkişafa və dövlətin qlobal təhlükəsizlik məkanına inteqrasiyasına hərtərəfli dəstək verə bilən effektiv institusional mexanizmlər yaradılmalıdır. Ədalətli sülhə qayıdaraq qeyd edirik ki, konseptual olaraq bu anlayış bir sıra nəzəri-hüquqi problemlərin həll edilməsini zəruri edir. Fikrimizcə, bu cür nəzəri problemlər sırasında sülh hüququnun əhatə dairəsinin və əsas tərkib hissələrinin müəyyən olunması ilkin xarakter daşıyır.

Konseptual dəyişikliklər - yalnız kollektiv yanaşmadan sülhün hər bir şəxsin fərdi, qanuni olaraq qorunan hüququ olduğunu anlamağa keçidi əhatə edir. Bu yanaşma dəyişkənliyi sülhün pozulmasının birbaşa konkret bir şəxsə, onun təhlükəsizliyinə, azadlığına, sosial inkişafına və digər fundamental hüquqlarını həyata keçirmək qabiliyyətinə təsir etdiyini vurğulayır. Beləliklə, sülh yalnız deklarativ norma və ya "yumşaq norma" xarakterində olmaqdan çıxır və beynəlxalq məhkəmə institutları, insan hüquqlarının monitorinqi orqanları və sülhün pozulmasına görə məsuliyyət mexanizmləri vasitəsilə aydın hüquqi müdafiə mexanizmləri tərəfindən qorunma xüsusiyyəti əldə edir. Bundan əlavə, sülh hüququnun fərdiləşdirilməsi müharibə cinayətləri, təcavüz cinayətləri və ya humanitar hüququn pozulması hallarında fərdi ədalət mühakiməsinə çıxış vasitələrinin inkişafına, hər bir fərdin hüquqlarının qorunması nöqteyi-nəzərindən beynəlxalq həmrəylik və kollektiv təhlükəsizlik konsepsiyasının gücləndirilməsinə töhfə verir.

Sülh və təhlükəsizlik bir-birini tamamlayır: sülh təhlükəsizliyin ilkin şərtlərini təmin edir və təhlükəsizlik sülhün qorunmasına töhfə verir. Beynəlxalq hüquq sistemində bu kateqoriyalar ayrılmaz şəkildə bir-biri ilə əlaqələndirilir və münaqişələrin qarşısının alınması, dayanıqlı və davamlı inkişafın təmin edilməsi sisteminin təməlini təşkil edir. İnsan hüquqları kontekstində də sülh hüququ və təhlükəsizlik hüququ müharibə və təcavüz dövrlərində, insanın və dövlətin təhlükəsizliyini təmin etmək, sülhə nail olmaq üçün maksimum səy göstərilməli olduğu zaman xüsusi əhəmiyyət kəsb edir. Bu hüquqların konstitusiya təminatları müasir dünyaya təhdidlərin qarşısının alınmasında əsas rol oynayır. Sülh və təhlükəsizlik tərəqqinin, insan hüquqlarının inkişafının, demokratik və humanist dəyərlərin bərqərar olmasının əsas amilləri olaraq qalır, həmçinin qlobal və milli hüquq düşüncəsinin təkamülünə, beynəlxalq və milli hüquq sistemlərinin əlaqələnməsinə, transformasiyasına dəstək göstərir.

Müasir dövrdə təhlükəsizlik böhranlarının dərinləşməsi, silahlı münaqişələrin xarakterinin dəyişməsi və qlobal geosiyasi transformasiyalar sülh hüququnun effektiv təminatını daha mürəkkəb hüquqi problemə çevirmişdir. Doktrinada bu hüququn həyata keçirilməsinə mane olan amillər sırasında ənənəvi müharibə üsullarından fərqlənən hibrid münaqişələrin genişlənməsi xüsusi qeyd olunur [2, s.6]. Kiberhücumların, informasiya əməliyyatlarının və iqtisadi təzyiq vasitələrinin silahlı qarşıdurmalarla paralel tətbiqi təhlükəsizliyə çoxşaxəli təhdidlər yaradaraq sülh hüququnun təmin edilməsini çətinləşdirir. Bununla yanaşı, həmin hüququn realizəsini təmin edə biləcək effektiv hüquqi mexanizmlərin yetərincə formalaşmaması, geosiyasi qarşıdurmalar şəraitində sülh anlayışının siyasiləşdirilməsi, terrorizm, ekstremizm və daxili qeyri-sabitliyin yayılması da mövcud təminat sisteminin effektivliyinə mənfi təsir göstərir. Münaqişələr zamanı soyqırımı, deportasiya, seksual zorakılıq və işgəncə kimi ağır insan

hüquqları pozuntularının baş verməsi isə sülh hüququ ilə digər fundamental insan hüquqlarının qarşılıqlı bağlılığını daha aydın nümayiş etdirir.

Digər mühüm problem sülh hüququnun milli səviyyədə kifayət qədər tanınmaması, onun hüquq təhsili, hüquq mədəniyyəti və məhkəmə müdafiəsi mexanizmlərinə lazımi səviyyədə inteqrasiya edilməməsidir. Nəhayət, informasiya müharibələri və dezinformasiya münaqişə və sülh haqqında ictimai təsəvvürləri təhrif etməklə yanaşı, beynəlxalq hüquqa, insan hüquqlarının müdafiəsi sisteminə və bütövlükdə sülh konsepsiyasına ictimai etimadın zəifləməsinə səbəb olan amillərdən biri kimi çıxış edir [4, s.85]. İnsan hüquq və azadlıqlarının qorunması, onların tənzimlənməsi və həyata keçirilməsi, qorunması və müdafiəsi mexanizmlərinin təmin edilməsi sahəsində əhəmiyyətli irəliləyişlərə baxmayaraq, müasir silahlı təhdidlər, ilk növbədə müharibələr və digər silahlı münaqişələr, işğalçı siyasətlər, pandemiyalar və fəlakətlər nəzərə alınmaqla, sülh hüququ ilə bağlı əksər tədqiqatlar ümumi nəzəri və tez-tez mübahisəli olaraq qalır. Beynəlxalq hüquq elmində, konstitusiya hüququnda, inzibati hüquqda, xüsusən də hərbi qulluqçular, veteranlar, qadınlar, uşaqlar, əlilliyi olan şəxslər və milli azlıqlar üçün insan hüquqlarının təmin edilməsinin xüsusi rolu dəfələrlə vurğulansa da, hüquqi institutlar və prosedurlarla bağlı bir çox problemlər hələ də qalmaqdadır. Ümumilikdə beynəlxalq insan hüquqları sisteminin zəifliyini və əsas boşluqlarını ən çox sülh hüququ sahəsində görmək mümkündür.

Məsələn, təklif etmək mümkündür ki, sülh hüququ öz əhəmiyyətinə, vacibliyinə, çoxşaxəli tətbiq sferasında və özünəməxsus predmet dairəsinə görə artıq ayrıca sülh hüququ sahəsi kimi formalaşmışdır. Həqiqətən də, hüquq nəzəriyyəsi baxımından yeni formalaşmış sülh hüququ sahəsinin prinsipləri, mənbələri, predmet elementləri və subyektlər dairəsi barədə müəyyən təhlillər aparmaq mümkündür. Bununla belə, bu cür yeni təkliflər elmi-nəzəri baxımdan mümkün olsa da, müəyyən siyasi səbəblərə görə lazımi şəkildə dəstəklənməyəcəkdir. İlk səbəblərdən biri kimi sülh hüququnun imperativ öhdəliklər ehtiva etməməsi, sülh hüququ üzrə ayrıca konvensiyanın olmaması, sülh hüququ üzrə implementasiya mexanizminin yaradılmaması kimi göstərmək mümkün olacaqdır. Hər bir halda, sülh hüququ sahəsində xeyli tənqidi məqamlar olsa da, insan hüquqlarından biri kimi sülh hüququnun fərdi və kollektiv hüququ kimi mühüm inkişafını müşahidə etmək mümkündür. Ən azından qəbul etmək mümkündür ki, sülh hüququ bugünkü qlobal silahlı böhranlar səbəbindən özündə kollektiv insan hüquqlarına aid bütün keyfiyyətləri cəmləşdirir. Bu səbəbdən də alimlər hüquqların sistemləşdirilməsinə, onların nəsillərə və tipologiyalara görə təsnifatına müasir dövrdə daha müstəsna diqqət yetirirlər. Bir çox tədqiqatçılar kollektiv hüquqları geniş şəkildə nəzərdən keçirirlər. Məsələn, Burns G. Ueston və Richard P. Claude kollektiv hüquqların öz məqsədləri arasında aşağıdakıları müəyyən etmişlər: siyasi, iqtisadi, sosial və mədəni aspektlərdə öz müqəddəratını təyinetmə, «bəşəriyyətin ortaq irsində» iştirak, eləcə də sülh, sağlam ətraf mühit və humanitar yardım hüquqları [7, s.229]. Düşünürük ki, müəyyən olunan bu dəyərlərin hər birini kollektiv sülh hüququnda tapmaq mükündür. Hətta təklif edə bilərik ki, sülh hüququ vahid və yeganə insan hüququ kimi deyil, daha kiçikhəcmli hüquqların vahid adı kimi qəbul edilə bilər. Məsələn, sülh hüququnu tibbi yardım almaq hüququ, layiqli şəraitdə yaşamaq hüququ, qidalanmaq hüququ, sağlam mühitdə mövcud olmaq hüququ və s. kimi xırda hüquqlara bölmək mümkündür.

Tarixi baxımdan sülh hüququnun müxtəlif tərkib hissələri onu yaşamaq hüququ, azadlıq hüququ, inkişaf hüququ, layiqli həyat hüququ və s. fərdi və kollektiv hüquqlarla əlaqələndirmişdir. Son geosiyasi hadisələr səbəbindən düşünürük ki, sülh hüququnun elmi-nəzəri və hüquqi əhəmiyyətini onun kollektiv xarakterində daha çox axtarmaq məqsədəuyğundur. Belə ki, sülh hüququnun daha keyfiyyətli şəkildə tənzimlənməsi təkcə konkret bir şəxsə, şəxslər qrupuna, millətə deyil, bütövlükdə qlobal miqyasda bəşəriyyətə təsir etmək gücünə malikdir. Digər sözlə, sülh hüququ həm insan hüquqlarından biridir, eyni zamanda da beynəlxalq hüququn prinsiplərinin və ümuməcburi normalarının əsas elementləri sırasındadır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Məcidli, S.T. Sülh və təhlükəsiz yaşamaq hüququ. Elektron tədris vəsaiti. Bakı. 2024. 260 səh.
2. Bailliet, C.M. Research handbook on international law and peace. UK, Cheltenham: Edward Elgar Publishing Limited. 2019, 608 p.
3. Dubey, U.N. Prisoners and human rights. UK, London: Bluerose Publishers. 2023, 320 p.
4. Reuter, C. Germany, Wiesbaden: Springer Fachmedien Wiesbaden. 2024, 488 p.
5. Siatitsa, I. Serious violations of human rights: on the emergence of a new special regime. Oxford University Press, 2022, 288 p.
6. Stahn, C., Iverson, J. Just peace after conflict: jus post bellum and the justice of peace. UK, Oxford: Oxford University Press. 2020, 353 p.
7. Weston, B.H., Claude R.P. Human rights in the world community: issues and action. USA, Philadelphia, Pennsylvania: University of Pennsylvania Press. 2006, 543 p.

Демирли Камиль Ильгар оглу,
Преподаватель и докторант кафедры прав человека и
информационного права ЮНЕСКО юридического факультета
Бакинского государственного университета

ОСНОВНЫЕ НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ПРАВА НА МИР

РЕЗЮМЕ

Несмотря на то, что право на мир является одним из основных и фундаментальных прав человека ввиду его важности, целей и значимости, сегодняшняя мировая реальность далека от принципа мирного сосуществования. В настоящее время нет ни одного региона, где бы не нарушалось право на мир и где бы не происходили вооруженные конфликты в том или ином масштабе. Даже страны и народы, которые на протяжении многих веков не участвовали в вооруженных конфликтах, сегодня могут подвергаться информационным войнам, агрессивным и насильственным нападениям. Все эти процессы показывают, насколько серьезны пробелы и трудности в обеспечении права на мир. Некоторые из этих проблем носят научно-теоретический характер, другие — практический. В данной статье обращается внимание на основные теоретико-правовые проблемы обеспечения права на мир и предлагается ряд решений.

Demirli Kamil Ilgar,
Lecturer and Ph.D. student of the UNESCO Chair on Human Rights and
Information Law of the Faculty of Law of Baku State University

MAIN SCIENTIFIC AND THEORETICAL PROBLEMS OF ENSURING THE RIGHT TO PEACE

SUMMARY

Despite the fact that the right to peace is a fundamental human right due to its importance, goals, and significance, today's global reality is far from the principle of peaceful coexistence. Currently, there is not a single region where the right to peace is not violated and where armed conflicts of varying scales do not occur. Even countries and peoples that have not been involved in armed conflict for centuries can today be subjected to information warfare as well as aggressive and violent attacks. All these processes demonstrate the serious gaps and difficulties in ensuring the right to peace. Some of these problems are of scientific and theoretical in nature, while others are practical. This article highlights the main theoretical and legal problems in ensuring the right to peace and proposes a number of solutions.

Redaksiyaya daxilolma tarixi: 02.08. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 09.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026